Turan Anar. Vüsalına yetən qəhrəmanA // Xalq qəzeti. - 2022. - 11 noyabr. - № 245. - S. 17.

Düşünürük ki, böyük Zəfərimiz uğrunda gedən döyüşlərdə igid oğullarımız canlarından keçiblər. Camallar, Babəklər, Sübhanlar, Elyarlar, onlardan əvvəl Mübarizlər, Raquflar, Murad və Pəncəlilər və daha kimlər, kimlər...Onlardan biri də Vüsal Vəliyevdir. Dəfələrlə sosial şəbəkələrdə qarşımıza videogörüntüləri, təbəssümlü çöhrəsi əks olunan fotoları çıxan Vüsal.

Qəhrəmanımız 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində anadan olub. 2002–2005-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2005–2009-cu illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali təhsil alıb. Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Noyabrın 9-da Şuşada şəhid olub. Şərur şəhərinin Şəhidlər xiyabanında dəfn olunub. Prezident İlham Əliyevin sərəncamlarına əsasən ölümündən sonra “Azərbaycan bayrağı” ordeni, “Vətən uğrunda”, “İgidliyə görə” medalları ilə təltif edilib.

Həmişə şəhidlər barədə düşünərkən bir məsələ onlar haqqında fikirlərimə hakim kəsilib. Elə bil, şəhidlərin seçilmiş bəndələr olması onların üzlərində də həkk olunub.

Elə Vüsal barədə bunları düşünürdüm ki, birdən mənə bir təpər gəldi və fotomüxbirimiz Elşənlə bu barədə danışa-danışa Vüsalgilə getdik. Onun qardaşı, filologiya üzrə fəlsəfə doktoru, tədqiqatçı Elyar İslamoğlu ilə səmimi söhbət etdik. Vüsal haqqında bütün bilgiləri aldıq. Sənədlərə, diplomlara, mükafatlara baxdıq. Ev başdan-başa Vüsal Vəliyevin portretləri, fotoları, sağlığında və şəhidliyindən sonra layiq görüldüyü mükafat və təltiflər ilə bəzədilib.

Vüsal uşaqlıqdan hərbi sahəyə maraq göstərib və yaşıdları ilə ən çox oynadığı elə hərbi oyunlar imiş. Atalarımız niyyətin hara, mənzilin də ora deyiblər. Zaman da elə istəklə üst-üstə düşməyi seçdi və Vüsalı bu sahəyə gətirdi. Doğulduğu kənd Ermənistanla sərhəddə yerləşir. Qardaşı deyir ki, biz top atəşlərinin sədası ilə böyüdük. Vüsal taxtadan, dəmirdən özünə tapanca, avtomat oyuncaqlar düzəldirdi, düşməni məhv eləmək üçün şəxsi təxəyyülünə söykənən oyunlar oynayırdı. Əgər bir dostunun problemi olsaydı, dərhal özünü irəli verərdi. 8-ci sinifdə olanda dedi ki, hərbçi olmaq istəyir.Etiraz etmədik. Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul edildi. Çətinliklərə dözdü, oxudu. Tez-tez yanına gedir, ona baş çəkirdim. Çox ağır təlimlər keçirdilər.

Oxuduğu illərdə müəllimlərinin, dostlarının hörmətini qazandı. Sonra getdi təlim-tədris mərkəzinə. Orada bir illik kursu müvəffəqiyyətlə bitirdi. Daha sonra xüsusi təyinatlıların kursuna üz tutdu. Elə olurdu ki, qurşağa qədər qarın içində təlim

keçirdilər. Bir dəfə çiyni sınmışdı. İnanın, o vəziyyətdə evə gəlmədi ki, bilməyək. O, mənim gözümdə həmişə uşaq idi, amma sən demə, o məndən daha böyük, daha dözümlü, daha qətiyyətli imiş. Qardaşım şəhid olandan sonra bunu daha dərindən anladım. Çünki onun haqqında döyüş yoldaşları, hərbçi yoldaşları elə faktlar söyləyirlər ki, fəxr edirəm. Düz yeddi il Beyləqanda, Harami düzündə ermənilərlə üz-üzə, göz-gözə xidmət etdi. Həmişə deyirdi ki, əsgərlərimizin valideynləri onları mənə əmanət edib. Gərək onları göz bəbəyi kimi qoruyaq. 19 il qüsursuz xidmət hər zabitə qismət olmur. Bax, "Qüsursuz xidmətə görə" medalı da ona buna görə verilib.

Bu arada məlum oldu ki, Vüsal Vəliyev şəhid general-mayor Polad Həşimovla 6 il bir yerdə xidmət edib. Çox təsirli məqamdır. Polad Həşimov kimi bir vətənsevər generalla bir yerdə xidmət etmək Vüsalın taleyinin mühüm bir nöqtəsidir. Qardaşı deyir ki, onlar çox yaxın dost olublar. Hər ikisinin ürəyi əsgər heyəti ilə döyünürdü. Əsgərlərini heç kimin ayağına verməzdilər. Yadımdadır, Polad Həşimov şəhid olanda Vüsal mənə zəng vurub dedi ki, get generalımın anasının əlini öp, özüm də gəlib əlini öpəcəm, ziyarət edəcəm onu. Vüsal müharibədə də özü üçün bir parol seçmişdi: Qisas 44. O, Polad Həşimovun intiqamını almağı qarşısına məqsəd qoymuşdu. Təəccüblü orasıdır ki, müharibə 44 gün çəkdi, qisas da alındı. İndi təsadüfdürmü, hissiyyatdırmı, nə bilmək olar?

Qardaşı Elyar onun Vətən müharibəsində göstərdiyi şücaətlərə toxunaraq bildirdi ki, konkret olaraq döyüş vaxtı nə qədər əsgərini xilas edib. Əsgərləri gəlib ondan halallıq istəyirlər ki, onları komandirləri xilas edib. İnanın, dəfələrlə ona deyirdim ki, Vüsal, biz sənin toyuna hazırlaşırıq, sən nişanlısan. Özünü qoru, heç olmasa nişanlına görə qoru. Valideynlərimiz dözməz sənin itkinə. Axırıncı dəfə bizdən elə ayrıldı ki, elə bil toya-bayrama gedirdi. Amma o bilirdi ki, vəziyyət ciddidir, müharibəyə gedir. Heç vaxt ağlıma gəlməzdi ki, ona nəsə olacaq. Aprel döyüşlərindən, iyul döyüşlərindən sağ çıxmışdı. Qəhrəmancasına döyüşdü, qəhrəmancasına şəhid oldu. 72 gün biz onun cənazəsini axtardıq. O günləri xatırlamaq istəmirəm. Bizim üçün dözülməz günlər idi. İtkin düşdüyü xəbərin gəldiyi gün atam dünyasını dəyişdi. Bu, bizim ailəmiz üçün ikiqat ağır oldu. Anam həmişə deyir ki, ata rəhmətə getdi, balanın xəbəri yox, bala rəhmətə getdi, atanın xəbəri yox (Kövrəlir). Bu gün geriyə boylanarkən arxada onun bu geyimləri (stolun üzərində Vüsalın hərbi köynəklərini göstərir) və orden medallarından başqa bir nişanə qalmadı. Bir də döyüş yoldaşlarının qəhrəmanlığı barədə dedikləri...

Bəli, əziz oxucu... İgidliyi və nakam taleyi barədə oxuduğunuz qəhrəman Vüsal Vəliyevdir. Şəxsi həyatını, arzularını, gələcəyini öz Vətəninin azadlığı uğrunda qurban verən, general dostunun qisasını almaq istəyən və bütün bunlara nail olan şəhid mayor Vüsal Vəliyev. Adının mənasına uyğun həyat yaşayan qəhrəman! Vüsalına yetən qəhrəman!